Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Poeziyamızın ustadı Ramiz Rövşən

**Ramiz Rövşənin 75 illik yubileyi münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2021**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*



Ramiz Rövşənin 75 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2021. – 33 s.



**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

## Bölmə I
## Həyat və yaradıcılığı

Ramiz Rövşən 1946-cı il dekabr ayının 15-də Bakının Əmircan kəndində anadan olmuşdur. O, əslən Qubadlı rayonunun Teymur Müşkanlı kəndindəndir. İlk təhsilini Suraxanı rayonundakı 208 saylı şəhər orta məktəbində təhsil alan şair, sonrakı təhsilini Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində (1964-1969) davam etdirmişdir. Ramiz Rövşən Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında, "Mozalan" satirik kinojurnal studiyasında redaktor (1971), kinostudiyanın ssenari emalatxanasında ssenarist (1974-1975), ssenari redaksiya heyətinin üzvü (1979-1987), kinostudiyanın baş redaktoru, Azərbaycan Tərcümə Mərkəzinin baş redaktoru vəzifələrində (1987-1992) çalışmışdır. Ramiz Rövşən Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin və Azərbaycan Mətbuat Şurasının üzvüdür. Şair bir neçə şeir kitabının müəllifidir. Onun şeir və hekayələri keçmiş SSRİ-nin dövründə bir çox dillərə tərcümə edilmiş, ABŞ, Almaniya, İngiltərə, Fransa, Polşa, Bolqarıstan, Türkiyə və İranda müxtəlif mətbu nəşrlərdə və kitablarda çap olunmuşdur. Onu da qeyd edək ki, Ramiz Rövşənin ssenariləri əsasında çoxlu sayda bədii və sənədli film çəkilmişdir. Ramiz Rövşən şeirinin qüdrəti onun sadəliyində, lokanikliyində, dərin mənada fəlsəfiliyindədir. Əsl şeiri söz yığınından fərqləndirən onun qəlblərə yol tapması, insanları düşündürməsi, şirinliyi, lətafətidir. Ramiz Rövşənin şeirlərini onun pərəstişkarları məhz bu xüsusiyyətlərinə görə sevirlər. Qəlblərə, ürəklərə yol tapan bu şeirlərin mayası məhəbbətdir: tanrıya məhəbbət, vətənə məhəbbət, insana məhəbbət. Onun məhəbbətlə yoğrulmuş misralarını oxuduqca insan şüurunun lap ucqarlarında ən

əlçatmaz, ünyetməz yerlərində həzin bir gizilti əmələ gəlir. O gizilti sanki insanı silkələyir, yatdığı yuxudan oyadır. Məhz bu zaman şeirin gözəlliyi, dəyəri, şairin qiyməti üzə çıxır. Ramiz Rövşən o qədər qüdrətli şairdir ki, yazdığı onlarca şeirin tək bircəsini yazmış olsaydi belə yenə də böyük şair kimi ədəbiyyat tariximizə daxil olacaqdı və yaşayacaqdı. Onun hər bir şeiri sənətkarlıq, fikir dərinliyi, rəvanlıq cəhətdən ana dilimizin zənginliyini, gözəlliyini, incəliyini bir daha sübut edən parlaq bir nümunədir. Şairin şeirlərində vətənpərvərlik, bəşəri məhəbbət, məslək eşqi, dərin etiqad, vüqar və sadəlik, xalq ruhuna yaxınlıq, dərin sənətkarlıq, müdriklik, həyata və insana məhəbbətin tərənnümü poetik şəkildə təcəssüm etmişdir. Ramiz Rövşən elə şairlərdəndir ki, uzun illər kitabı çıxmasa da onun şeirləri dillər əzbəri olmuş, nəşr olunan kitabları əldən-ələ gəzmişdir. Özünəməxsusluq, bənzərsizlik onun şeirlərinin qayəsindədir. İnsani keyfiyətləri və xüsusiyyətləri ilə heç kəsə bənzəməyən, ancaq özü olan şairin əsərləri də hər kəsin yazdıqlarına bənzəmir. O poeziyamızda yeni irs, yeni cığır açmış və bu irsə öz möhürünü vurmuş, əvəzedilməz təkrarolunmaz bir şairdir. Şair bütün şeirlərini bütün varlığı ilə ürəkdən gələn sözlərlə yazır. Ramiz Rövşənin şeirlərini sevməmək mümkün deyil. Onun şeirlərini hər dəfə oxuduqca yeni mənalar, yeni çalarlar meydana çıxır. Müasir Azərbaycan poeziyasının laiqli nümayəndəsi olan Ramiz Rövşənin şeirlərinə, yaradıcılığına böyük marağı nəzərə alaraq kitabxanamız şairin 75 illik yubileyinə həsr olunmuş vəsaiti sizə təqdim edir.

## Bölmə II
## Yubiley tədbirlərinin keçirilməsi

***Oyaq qalmaq istəmirəm,***
***Tez qocalmaq istəmirəm.***
***Şair olmaq istəmirəm,***
***Bu sözləri çırpın məndən.***

Sevimli şairimiz Ramiz Rövşənin  75 illik yubileyi respublika səviyyəsində geniş şəkildə qeyd olunur. Bu münasibətlə respublikamızın bir sıra mədəniyyət ocaqlarında o cümlədən kitabxanalarda  maraqlı tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.  Belə tədbirlərdən biri də kitab sərgisidir. Kitab sərgisi kitabxananın oxu zalında təşkil olunur. Sərgilər kitabxana tədbirləri arasında özünəməxsus yer tutur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn:  "Gedək biz olmayan yerə", ""Dünyanın sən olan yeri", "Ömrümün yağışlı günləri", "Bir ağacın kölgəsində", " Gedən kimdi, qalan kimdi" və s. "Dünyanın sən olmayan yeri" adlı kitab sərgisini sizlər üçün təqdim edirik.

1. "Dünyanın sən olmayan yeri"

2.Kitablarının nümayişi.

3.Dövrü mətbuatda çap olunmuş kartotekaların nümayişi.

4.Görkəmli insanların R.Rövşən haqqında söylədikləri.

5. R.Rövşənin sözlərinə yazılmış musiqi notları.

6.Şeir parçası.

*Gedirəm, izim böyüyür,*
*Susuram, sözüm böyüyür,*
*Baxıram, gözüm böyüyür*
*Dünya mənə tanış gəlir!*

Bildiyimiz kimi Ramiz Rövşən bir-birindən maraqlı kitabların müəllifidir. Baxmayaraq ki, o bir çox əsərlər yazıb yaratmışdır. Amma onun nəşr olunan kitabı azdır. Bəlkə də Ramiz Rövşən adi şair olsaydı uzun müddət kitabları oxucuların istifadəsinə verilmədiyi üçün oxucular tərəfindən unudulardı. Ancaq Ramiz Rövşən xalqın ürəyində elə taxt qurmuşdur ki, uzun illər kitabı nəşr olunmasa belə həmişə oxucuların sevimlisi olmuşdur. Ramiz Rövşənin "Nəfəs-kitablar kitabı", "Gədək biz olmayan yerə", "Kəpənək qanadları", "Yağışlı nəğmə", "Sevgi məktubu kimi", "Göy üzü daş saxlamaz", "Sevgi açarı" və s. kitablarının icmalının keçirilməsi oxucularımız üçün maraqlı olar.

Şairin "Nəfəs-kitablar kitabı" adlı kitabının icmalınının keçirilməsi məqsədəuyğundur. Kitab Bakıda "Qanun" nəşriyyatında 2006-cı ildə işıq üzü görmüşdür. Şairin əsərləri bir sıra xarici dillərə (ingilis, rus, fransız, ispan, polyak) tərcümə olunmuşdur. Bu kitab isə onun ana dilimizdə nəşr olunan ən iri həcmli kitabıdır. Kitabda bir-birindən maraqlı şeirlər öz əksini tapmışdır. Onu da qeyd etmək lazımdır ki, Ramiz Rövşən şeiri öz təbiiliyi, səmimiliyi ilə hər zaman fərqlənir. Kitabdakı maraqlı şeirlərdən biri olan "Çatmaz" adlı şeirini sizə təqdim edirik.

Minsək də quş qanadına,
Qalxsaq da göyün qatına,
Yenə, yenə öz baxtına
Biri çatar, biri çatmaz.

Güləndən çoxdu ağlayan,
Allaha ümid bağlayan,
Hamı deyir "ağıllıyam",
Ortada bir dəli çatmaz

Zalım əcəl haxlayınca,
Ölən ölər arxayınca,
Bir ölənin arxasınca
Yüyürsə min diri, - çatmaz...

Kitabda şeirlərlə yanaşı "Belə-belə işlər", "Hamı oğul böyütmüşdü", "Analardan uzun qızlar", "Evin tikilməsin Amerika" hekayələri, "Daş" adlı hekayələr və povest də yer almışdır. Ramiz Rövşənin şeirləri kimi nəsr əsərləri də nəsihətamiz və mənalıdır.

R.Rövşən yaradıcılığının 75 illik yubileyi münasibətilə keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Tədbir kitabxananın oxu zalında təşkil olunur. Kitabxanaçı tədbirə şair və yazıçılarla yanaşı, ədəbiyyat müəllimlərini, şeirə, ədəbiyyata qiymət, dəyər verən oxucuları dəvət edir. Tədbir R.Rövşənin "Sevgi açarı" adlı kitabının müzakirəsi ilə başlayır. İlk öncə kitabın tərtib olunması haqqında məlumat verilir. Kitab TEAS Press Nəşriyyatı tərəfindən 2019-cu ildə qardaş ölkə Türkiyədə çap edilib. Kitabın içərisindəki şeirlər bir neçə başlıqlarla verilmişdi. "Dünyanın sən olmayan yeri", "Səni tapşırıram ay işığına", "Yaylığını yel aparır", "Ayrılıq", "Günah" və s. İlk əvvəl müəllifin kitabda oxucularına müraciətini təqdim edirik:

Bu kitab mənim cavanlara hədiyyəmdir. Burda oxuculara tanış olan şeirlərimlə yanaşı, müxtəlif vaxtlarda, xüsusən də gənclik illərimdə yazdığım və bu günəcən heç bir kitabımda çap olunmayan bir çox sevgi şeirlərim ilk dəfə işıq üzü görüb. Kitabda dünya poeziyasından dilimizə çevirdiyim bir neçə sevgi şeirini və son illərdə yazdığım "Xəyanət" adlı kinopevesti də

oxuyacaqsınız. Tədbir şairin kitabın ön səhifəsindəki "Yaylığını yel aparır" şeiri ilə davam edir.

Saçların dağılıb tamam,
Yaylığını yel aparır.
Qaçıram, tuta bilmirəm,
Qoyma, məni tər aparır.

Saçına güllər taxırsan,
Ovcuna xına yaxırsan,
Sən orda göyə baxırsan,
Burda məni yer aparır...

Kitabxanada oxucular arasında mütamadi olaraq test sorğularının keçirilməsi yaxşı nəticələr doğurur. Belə sorğuları məktəblilər arasında keçirmək daha məqsədəuyğundur. Belə ki, bu sorğuların şagirdlər arasında keçirilməsində əsas məqsəd uşaqların Ramiz Rövşən haqqında olan biliklərini yoxlamaq və onları daha daha yaxşı məlumatlandırmaqdır. Sevimli şairimizin yubileyinə həsr olunmuş testi sizə təqdim edirik.

**1.** Şair Ramiz Rövşən neçənci ildə anadan olmuşdur?
A. 1943
B. 1940
C. 1946*
D. 1930

**2.** Aşağıda göstərilən cizgi filmlərdən hansının sözləri Ramiz Rövşənə məxsusdur?
A. "Bulud niyə ağlayır?"*
B. "Meşəyə insan gəlir"
C. "Humayın yuxusu"
D. "Cırtdanın yeni sərgüzəştləri"

**3.** Aşağıdakı kitablardan hansının müəllifi Ramiz Rövşəndir?
A. "Əsir qadın"
B. "Ömür kitabı"
C. "Aləmdə səsim var mənim"
D. "Nəfəs Kitablar Kitabı"*

**4.** Ramiz Rövşən haqqında deyilənlərdən biri səhvdir.
A. Şair 1946-cı il dekabrın 15-də Bakının Əmircan kəndində anadan olub.
B. "Nəfəs. Kitablar Kitabı", "Gedək biz olmayan yerə " kitablarının müəllifidir.
C. Şairin əsərləri dünyanın bir çox dillərinə (rus, ukrayna, belarus, polyak, ispan ) tərcümə edilmişdir.
D. Bu il Ramiz Rövşənin 55 illik yubileyi qeyd olunacaq.*

**5.** Aşağıdakı mahnılardan hansının sözləri Ramiz Rövşənə aiddir?
A. "Azərbaycan"
B. "Gəncəm"
C. "Qatarın dalınca baxma"*
D. "Bakı haqqında mahnı"

**6.** Aşağıdakı cizgi filmlərdən hansında ifa olunan şeirləri Ramiz Rövşən yazmışdır?
A. "Meşəyə insan gəlir"
B. "Cırtdanın yeni sərgüzəştləri"
C. "Humayın yuxusu"
D. "Tıq-tıq xanım"*

**7.** Aşağıdakı şeirlərdən hansı Ramiz Rövşənə məxsusdur?

A. “Ay işığı”*

B.“Dünyanın zinəti”

C. “Qızıl torpaq”

D. “Ana torpaq”

**8.** Ramiz Rövşən haqqında deyilən fikirlərdən biri yalnışdır.

A. Ramiz Rövşən ancaq şeir müəllifidir.*

B. O həm nəsr, həm də nəzm əsərlərinin müəllifidir.

C. “Kəpənək qanadları” kitabı Ramiz Rövşənə məxsusdur.

D. Şairin şeirləri rus ukrayna belarus və s xarici dillərə tərcümə olmuşdur.

**9.** Aşağıdakı cümlələrdən hansı Ramiz Rövşənə aiddir?

A. “Dünyanın zinəti” kitabının müəllifidir

B. B. Bu il şairin 75 illik yubileyi qeyd olunacaq.

C.“Daş” povestinin müəllifidir*

D. Ramiz Rövşən tanınmış roman yazarıdır.

**10.** Aşağıda göstərilən kitablardan hansı Ramiz Rövşənə məxsus deyil?

A. “Kəpənək qanadları”

B. “Yağışlı nəğmə”

C. “Gedək biz olmayan yerə”

D. “Aləmdə səsim var mənim”*

## Kitab sərgisi


















Xalq şairi R.Rövşən yaradıcılığının geniş təbliği üçün keçirilən tədbirlərdən biri də şeir müsabiqəsidir. Şeir müsabiqəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında təşkil olunan şeir müsabiqəsinə bir çox şair və yazıçıları, ədəbiyyt müəllimlərini, ali məktəb tələbələrini, şagirdləri bir sözlə poeziya sevərləri dəvət etmək olar. Kitabxanaçı yaxşı intonasiyası, gözəl şeir demək bacarığı olan şagirdləri seçir, şairin şeirlərindən bir neçəsini iştirakçılara təqdim edir. Tədbirdə iştirak edən və sonda qalib olan iştirakçılar kitabxananın müdriyyəti və münsiflər heyyəti tərəfindən mükafatlandırılır.

“Sevimli şairmiz Ramiz Rövşənin, “Gedək biz olmayan yerə” adı altında təşkil olunan müsabiqəni sizlər üçün təqdim edirik. Bildiymiz kimi Ramiz Rövşən bir birindən maraqlı şeirlərin müəllifidir. “Həsrət”, “Köhnə sözlər”, “Yarpaq”, “Şam”, “Söz”, “Kəpənək qanadları”, “Hörümçək”, “Gedək biz olmayan yerə”, “Yağış yağır, gün qurudur”, “Nərdivan”, “Dünyaya çoxdan baxıram, “Çörəyin daşdan çıxırsa” şeirləri müsabiqə zamanı uşaqlar tərəfindən münsüflərə təqdim oluna bilər.

Oxucular səhnəyə daxil olur. “Gedək biz olmayan yerə” şeirini söyləyirlər.

Gəl, əl-ələ tutub gedək,

Gedək biz olmayan yerə.

Hər dərdi unudub gedək

Dərdimiz olmayan yerə.

Burda qoyaq özümüzü,
Bu qırışan üzümüzü,
Bu köhnələn sözümüzü,
Gedək söz olmayan yerə.

Bir kimsə tutmasın xəbər,
Gəl, çıxıb gedək birtəhər
Bu ev, bu küçə, bu şəhər,
Bu dəniz olmayan yerə.

…Atam oğlu, az çapala,
Sən deyən çətin tapıla;
Bu Ramizi kim aparar
Bu Ramiz olmayan yerə?!

R.Rövşən yubileyinin 75 illiyi münasibətilə keçirilən tədbirlərdən biri də sual-cavab gecəsidir. Sual-cavab gecəsində uşaqlara şairin həyat və yaradıcılığı haqqında geniş məlumat verildikdən sonar, kitabxanaçı şairin yaradıcılığı ilə bağlı hazırladığı sualları oxuculara təqdim edir.

**1. .Sual:** Şairin əsərləri hansı xarici ölkələrdə çap olunmuşdur?
**Cavab:** Ramiz Rövşənin şeir və hekayələri tərcümə edilərək bir sıra keçmiş SSRİ respublikalarında, eləcə də ABŞ-da, Almaniyada, Böyük Britaniyada, Fransada, Polşada, Bolqarıstanda, Türkiyədə və İranda çap olunub.

**2.Sual:** Ramiz Rövşən bir çox mahnı mətnlərinin müəllifidir. Həmin mahnılardan hansılarını tanıyırsınız?

**Cavab:** Ramiz Rövşən "Bağışla", "Bu qatarın dalınca baxma", "Novruz gəlir, yaz gəlir", "Ayrılıq", "Yalquzaq", "Bu ağac öləcək" adlı mahnı mətnlərinin müəllifidir.

**3.Sual:** Ramiz Rövşənin hansı filmlərdə şeirləri səslənir?
**Cavab:** "Əzablı yollar" ("Divlərin mahnısı"), "İşarəni dənizdən gözləyin" ("Yaraşmıram mən sənə"), "Qala" ("Dilin yansın, dil yiyəsi"), "Əlvida, cənub şəhəri" ("Yağış yuyur, gün qurudur") və s. filmlərdə R.Rövşənin bu şeirləri səslənir.

**4.Sual:** Ramiz Rövşənin "Divlərin mahnısı", "Dilin yansın, dil yiyəsi", "Yaraşmıram mən sənə" şerilərini birləşdirən ortaq cəhət nədir?
**Cavab:** Hər üç şeir şairin filmlərdə səslənən şeirləridir.

**5.Sual:** Sözləri Ramiz Rövşənə məxsus olan "Bu qatarın dalınca baxma" mahnısı kim tərəfindən ifa olunur?

**Cavab:** Flora Kərimova

**6.Sual:** Ramiz Rövşənin hansı hekayələrini tanıyırsınız?
**Cavab:** "Hərə gördüyünü görür", "Analardan uzun qızlar", "Yağışlı bir günün günortasında", "Evin tikilməsin Amerika"

**7.Sual:** Ramiz Rövşən şeir və hekayələrlə yanaşı bir-birindən maraqlı povestlərin də müəllifidir. Bəs onun hansı povestlerini tanıyırsınız?
**Cavab:** "Daş", "Yayda ölmək günahdı"

**8.Sual:** Şair hansı kitabların müəllifidir?
**Cavab:** "Gedək biz olmayan yerə", "Nəfəs-kitablar kitabı", "Kəpənək qanadları", "Sevgi açarı", "Qarabağ dastanı" və s.

**9. Sual:** Onun ən çox sevdiyiniz və əzbər bildiyiniz şeiri hansıdır?

**Cavab:** "Yağış yağır, gün qurudur", "Gedək biz olmayan yerə".

Görkəmli şair R.Rövşən yaradıcılığının geniş təbliği üçün keçirilən tədbirlərdən biri də oxucular üçün təşkil olunan nağıl saatıdır. Nağıl saatını təşkil edən kitabxanaçı şairin həyat və yaradıcılığı haqqında oxucuları tanış etdikdən sonra, şairin “Süd dişinin ağrısı” poemasından bir parçanı oxucular üçün səsləndirir. Səhnə poemaya uyğun dekorlarla bəzədilir.

Kitabxanaçı nağılı səsləndirir:

...Ölü quşlar yerdə böyür-böyürə düşüb qalmışdı. Uşaqlardan biri:

-Tez olun, əkilin,-dedi,-Çimnaz müəllimə gəlir!..

Doğrudan da, yolun o başından Şimnaz müəllimə gəlirdi, özü də düz onlara sarı gəlirdi. Deyəsən, o quşların başına acılan oyunu görmüşdü. Uşaqlar yerdəki ölü sərçələri də qamarlayıb tez aradan çıxdılar. O ağacın altında təkcə Səməd qaldı, bir də ölü sərçə. Çimnaz müəllimə gəldi, əyilib o sərçəni yerdən götürdü və Səmədə sarı çevrilib:

-Sabah ya atan, ya anan məktəbə gəlsin!-dedi.

Səməd dinmədi.

-Eşitmədin nə dedim?!

Səməd yenə dinmədi.

Onda Çimnaz müəllimə Səmədin qolundan tutdu:

-Harda olursan?-dedi.

Səməd başıynan göstərdi.

Çimnaz müəllimə Səmədin qolundan dartdı:

-Gedək!-dedi.

Və Səməd kirimişcə Çimnaz müəllimənin böyrünə düşdü. Getdilər, çatdılar, Səməd qapını açdı, girdilər içəri.

Səmədin atası evdə yox idi. Çimnaz müəllimə əlindəki ölü sərçənin başını tumarladı:

-Heç nə olmaz, gözləyərəm!-dedi.

Elə dedi ki, elə bil Səmədin atası gəlib bu sərçəni dirildəcəkdi.

Sonra Çimnaz müəllimənin gözü divardakı şəklə sataşdı:

-Anandı?-dedi.

Səməd başını tərpətdi.

-Anan evdə yoxdu?
Səməd başını buladı.
Çimnaz müəllimə o şəklə bir də baxdı:
-Nə gözəl anan var,-dedi.-Doğrudan belə gözəldi, ya şəkildə gözəl çıxıb?
Və Səməd axır ki, dilləndi:
-Bilmirəm,-dedi,-görməmişəm!
Və Çimnaz müəllimə o şəklin qara çərçivəsini elə indi gördü, diksinib sərçəni əlindən saldı. Səməd tez əyilib o sərçəni yerdən götürdü. Elə o dəqiqə də qapı açıldı, atası içəri girdi; çiynində tüfəng vardı, əlində də ovladığı bir cüt qırqovul. Səməd atasının böyründən sivişib qapıdan çıxdı. Çimnaz müəllimə birdən-birə bu kişinin əlindəki o bir cüt qırqovulnan, lap elə bu kişinin ovladığı-ovlamadığı bütün qırqovullarnan, kəkliklərnən, əliklərnən, ceyranlarnan, lap belə dovşanlarnan öz doğmalığını, yaxınlığını hiss elədi və o bir cüt qırqovulu göstərib dili topuq çala-çala:
-Deyəsən axı ovçusunuz?-dedi.
Səmədin atası Çimnaz müəlliməni ayaqdan başacan süzüb:
Hə,-dedi,-OVÇUYAM!..

Sən də, qəşəng xanım, məni bağışla,
Səni qorxutmasın əlimdəki qan.
Mənim ovladığım bütün bu quşlar
o ölən qadına qurbandı, qurban.
Yüz quşun, min quşun ölümü, bəlkə,
Onun ölümünə tən gələ bildi.
Axırda günlərin bir günü, bəlkə,
Onu o dünyadan mən ala bildim.

Tədbirin sonunda *(Ramiz Rövşənə həsr olunmuş Video lent ekranda nümayiş olunur)*

Kitabxançı uşaqlara müraciət edərək deyir: Uşaqlar, bilirsinizmi sizin sevərək izlədiyiniz cizgi filmlərinin bir çoxunda səslənən şeirlər Ramiz Rövşənə məxsusdur. Həmin cizgi filmlərindən bir neçəsinin adını deyə bilərsinizmi?

Uşaqlar : “Tıq-tıq xanım”, “Bulud niyə ağlayır?”

Kitabxançı: Afərin dostlar adını çəkdiyiniz cizgi filmlərindən hansına baxmaq istərdiz?

Uşaqlar: “Tıq-tıq xanım”

Kitabxançı: Elə isə hamınızı “Tıq-tıq xanım” cizgi filminə baxmağa dəvət edirik.

Şair R.Rövşənin yubileyi münasibətilə keçirilən tədbirlərdən biri də oxucu konfransıdır. Oxucu konfransın keçirilməsinə 1-2 ay qalmış mövzu seçilməli, elan yazılmalı, dəvətnamələr çap edilib paylanmalıdır. Ramiz Rövşənin 75 illik yubileyi ilə bağlı “Könüllərdə taxt quran şair”, “Ramiz Rövşən-75” başlıqları altında oxucu konfransı keçirmək olar. Konfransın keçiriləcəyi oxu zalında yazıçının kitablarından ibarət sərgisi təşkil olunmalıdır. Konfrans üçün ayrıca proqram tərtib olunur, orada konfransın adı, giriş sözü ilə çıxış edən şəxs və digər çıxış edənlərin adı, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Tədbirdə şairin özü, qələm dostları, jurnalistlər, yazıçı və şairlərin çıxışları dinlənilir. Bütün çıxışların mətni və tədbirin proqramı konfransın keçirildiyi kitabxanada saxlanılır. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (həyat və yaradıcılığı haqqında məruzə)
2. Ramiz Rövşənin şeirləri haqqında oxucuların çıxışları.
3. Poves və hekayələrindən parçalar.
4. Konfransın yekunu.

Kitabxanada oxucularla şairin görüşünün təşkili oxucuların sevincinə səbəb olar. Ramiz Rövşənin 75 iliyinə həsr olunmuş tədbirin ssenarisini sizə təqdim edirik. Görüşün maraqlı keçməsi üçün kitabxanaçılar tərəfindən tədbirin ssenarisi hazırlanır, qonaqlar dəvət olunur. Tədbirlərin daha da maraqlı

keçməsi üçün video lentlərdən də istifadə etmək olar. Belə ki, müxtəlif dövrlərdə şairə həsr olunmuş televiziya verilişlərindən götürülmüş fraqmentlərdən video çarx tədbir zamanı ekranda nümayiş etdirilir. Bildiyimiz kimi Ramiz Rövşənin şeirləri bir çox filmlərdə səsləndirilmişdir. Tədbirlər zamanı həmin filmlərdən fraqmentlər və ya filmlərin özü tədbir iştirakçılarına təqdim olunur. Eyni zamanda kitabxanaçılar uşaqlar üçün cizgi filmləri də nümayiş etdirə bilərlər. Bu məqsədlə kitabxana müdriyyəti tərəfindən həftənin bir günü azyaşlılar üçün cizgi filmi izləmək imkanı yaratmaq olar. Həmin günlər Ramiz Rövşənin şeirlərinin səsləndirildiyi cizgi filmlər ("Tıq-tıq xanım" və "Bulud niyə ağlayır.") nümayiş olunur. Aşağıda Ramiz Rövşənin 75 illik yubileyi münasibətilə keçiriləcək görüşün ssenarisini sizə təqdim edirik.

Tədbiri kitabxana müdüri açıq elan edir Ramiz Rövşəni və qonaqları salamlayır. Tədbir iki hissədən ibarət olur. Birinci - rəsmi hissədə səbəbkara, qonaqlara söz verilir. Tədbir əsnasında kitabxanaçılar tərəfindən əvvəlcədən hazırlanmış suallar şairə ünvanlanır. Ramiz Rövşənə ünlanlanan sualları sizə təqdim edirik:

1. Sizcə əsl şair kimdir?
2. Bəs Ramiz Rövşən kimdir?
3. Müasir yazıçı və şairlərdən kimlərin əsərlərini bəyənirsiniz?
4. Öz əsərlərinizi oxuyursunuzmu?
5. Oxuduğunuz zaman öz əsərlərinizə necə yanaşırsınız - oxucu kimi yoxsa tənqidçi kimi?
6. Öz əsərləriniz arasında ən çox hansı sizin xoşunuza gəlir? Hansı əsərinizi şedevr hesab etmək olar?
7. Əsərlərinizi adətən kimə həsr edirsiniz?

8. Ən çox bəyəndiyiniz və bəyənmədiyinizin əsərinizin adını deyin.
9. Sevilən bir çox mahnının sözləri sizə məxsusdur. Bəs həmin mahnılardan hansı sizə daha doğmadır?
10. Siz bir cox cizgi filmləri mətnlərinin müəllifisiniz. Bu cizgi filmləri arasında hansını övladlarınız uşaq ikən daha çox sevərdi?

Tədbirin ikinci hissəsi bədii hissədir. Səhnədən R.Rövşənin portreti və sitatı asılır.



***Poeziyanı müxtəlif mövzulara bölmək mənə həmişə qeyri-ciddi görünüb.“Təbiət şeirləri”, “sevgi şeirləri”, “vətən şeirləri”…Guya sevgisiz və ya vətənsiz şeirlər də var.***

***Ramiz Rövşən***

Tədbir  Xalq şairi Ramiz Rövşənin ata-baba yurdu Qubadlı rayonundan bəhs edən "Qapısız açarlar" yazısından müsahibə ilə başlayır. Müsahibəni olduğu kimi sizlərə təqdim edirik. Qubadlı mənim ata-baba yurdumdu. Mən özüm Əmircanda doğulmuşam. Amma bizim Əmircanda yaşadığımız məhəllə də elə Qubadlının "filialı" kimi bir yer idi: "Qarabağlılar məhəlləsi". Sağımız-solumuz hamısı qubadlılılar idi. Məhəlləmizdən üzüaşağı düşəndə gedib birbaşa Şorgölün qırağına çıxırdıq.Qubadlıda, bizim Teymur Müskanlı kəndinin də aşağısından Bərgüşad çayı axırdı. Hələ lap uşaqlıqdan, ağlım kəsəndən biz Qubadlıya həmişə yayda gedərdik. Odur ki, ən çox yadımda qalan da Qubadlının çaylarıdı; Bərgüşad, Həkəri. Hər ikisi şırıltıyla, gurultuyla axan, heç vaxt suyu azalmayan dəli-dolu dağ çaylarıydı. Mən üzməyi Bərgüşadda öyrənmişdim deyə Şorda üzmək mənim üçün heç nə idi. Bərgüşadda ən özündən deyən üzgüçü bu tayda suya baş vurardısa, üzə-üzə gedib ən azı əlli metr aşağıda o taya çıxardı. Çünki axına qarşı üzmək çox çətiniydi. Amma Şorda, suyun üzündə dalıqatlı uzanıb, əlində kitab oxuya-oxuya sabahkı dərslərə hazırlaşmaq da mümkün idi. Qubadlıya əsasən "Bakı-Noraşen" qatarıyla gedərdik. Və sübh tezdən qatardan düşdüyümüz o balaca stansiyanın özü də həmin o iki çaydan birinin adını daşıyırdı: Həkəri stansiyası. O stansiyayla bağlı anamın danışdığı bir əhvalat hələ də yadımdadı. 3-4 yaşım varmış. Dayım bizi aparırmış rayona. Anam deyirdi ki, sübh tezdən stansiyada düşdük. Bir xeyli gözlədik, avtobus gəlib çıxmadı. Gün də döyür başımıza. Bir ağacın altında oturduq ki, bir tikə çörək yeyək. Stansiya növbətçisi də bir qoca kişiydi. Çağırdıq, o da gəldi, oturdu böyrümüzdə. Nəyimiz vardı, bir az yedik, sonra ağzımız qızışdı söhbətə. Bir də gördük, bu qocanın sifəti qorxudan ağappaq ağardı. Bizə də barmağıyla işarə elədi ki, susun, tərpənməyin! Bizdən aralıda bir iri kötüyə bir yekə it bağlanmışdı. Bu qocanın öz itiydi. Bizim başımız söhbətə qarışanda, sən gözdən yayınıb, gedib durmuşdun o itin böyründə, itin başını tumarlayırdın. O

boyda əzazil it də necə çaşıb özünü itirmişdisə, elə yerindəcə quruyub qalmışdı, gözlərini döyə-döyə gah sənə baxırdı, gah bizə. Dayın da, mən də, elə istədik çığırıb yerimizdən qalxaq, kişi yenə işarə elədi ki, susun, tərpənməyin, yoxsa uşağı parçalayar. Biz də elə o cür quruyub qaldıq yerimizdə. Sən də bir xeylək o itin başını tumarladın, sonra da o itdən aralanıb yavaş-yavaş gəldin bizim yanımıza. İt də elə o cür mat-məəttəl sənin dalınca baxa-baxa qaldı. Anamın ən azı altmış il əvvəl danışdığı bu əhvalatın mənasını mən bir çox illər sonra anladım; sən demə, ən əzazil, ən zalım məxluqu da nəvazişlə, tumarla, sığalla yumşaltmaq, ən azı çaşdırmaq mümkün imiş. Amma təəssüf ki, bu dünyada heç bir nəvazişlə, yaxşılıqla, xeyirxahlıqla xisləti dəyişməyən məxluqlar da vardı; özü də Həkəri stansiyasından, Qubadlıdan o qədər də uzaqda deyildilər, elə qulağımızın dibindəydilər. Və bizim bir çox sonrakı faciələrimizin səbəbi bunu bilməməyimiz, üstəlik, bildiklərimizi də unutmağımız idi... Biz Qubadlıya həmişə yayda getsək də, amma yay aylarını çox vaxt kəndimizdə yox, yaylaqlarda keçirərdik; Tağyurdda, Üçtəpədə,Qanlıcada...

Yüz illər boyu bizim olan o qədim yaylaqlarımız Sovet vaxtı Ermənistanın ərazisində qalmışdı və ermənilər də, cürbəcür bəhanələrlə, ildən-ilə bir-bir o yaylaqların yolunu üzümüzə bağlayırdılar. Getdiyimiz o yaylaqlardan ən çox yadımda qalanı Qanlıcadı. Çünki o vaxt mən yekə oğlanıydım. Hər yay Qanlıcaya gedəndə, böyüklü, uşaqlı, maşınlı, atlı, ulaqlı, yüklənib kənddən çıxardıq, çayqırağı gedib köhnə Gorusun, Burunkəndin yanından ötərdik və dağın lap ayağındakı Qanlı gölün də böyründən keçib asta-asta Qanlıcanın başına qalxardıq. Qanlıcanın da, o Qanlı gölün də adı hələ on doqquzuncu əsrin əvvəllərində ermənilər bizim torpaqlara köçürüləndə yerli camaatla gəlmələrin arasındakı dava-dalaşdan, hansısa qanlı savaşdan qalmışdı.Əslində, o ətrafdakı bütün adlar bizimkiydi; Xəlil bulağı, Sarıdağ, Keçəldağ, Əyriqar... Qanlıcaya qalxanda, yuxarıda, dağın döşündə də bir iri göl vardı; Qaragöl. Biz

alaçıqları elə o dağın döşündə qurardıq. Oralar çox hündür idi deyən ağac-zad bitmirdi. Qışdan yaya qalan qar da ərimək bilmirdi; xarlanırdı, qurdlanırdı. Bir tərəfdə qar ağarırdı, o biri tərəfdə də ağappaq göbələklər bitirdi. O göbələklər çox dadlıydı, amma Qanlıcanın xarlanmış qarı məndən ötrü daha qiymətli və əziz idi. Çünki o qar bir dəfə məni ölümdən xilas eləmişdi. Hələ dörd-beş yaşım olanda, kənddə, yayın cırhacırında məni çayda çimizdirmişdilər, naxoşlamışdım, qızdırmam qırxı ötmüşdü, nə dərman, nə keçi piyi, heç nə kömək eləməmişdi. Və əgər dayım atı çapıb gecəynən gedib Qanlıcadan iki xurcun dolusu o xarlanmış qardan gətirməsəydi, bütün gecəni məni o qarla ovuşdurub istiliyimi salmasaydılar, bəlkə də sabaha sağ çıxmazdım. Qanlıcada ən məşhur yer Nəbi səngəriydi. Qanlıcanın ən hündür nöqtəsində, sıldırım qayaların əhatəsində olan səngərə tək bircə yol qalxırdı. Və mən başı üstündə çox vaxt qartallar uçub dövrə vuran o səngərə qalxmağı, ordan dörd tərəfə tamaşa eləməyi çox sevirdim. O səngərdən baxanda lap aşağıda qar kimi ağappaq evləri olan çox gözəl bir kənd görükürdü. Bir dəfə dayımdan soruşdum:
- O nə kənddi?
Dedi ki, Şəkidi. Sisyan rayonunun Şəki kəndi.
Mən o vaxt hələ özüm görməsəm də, amma Azərbaycanda bir gözəl Şəki şəhərinin olduğunu bilirdim. Sən demə, Ermənistanda da bir gözəl Şəki kəndi var imiş.
Və səksəninci illərin sonunda, hələ SSRİ vaxtı, ermənilər Qarabağa yiyə çıxmaq istəyəndə, böyüyüb azı otuz illik müharibəyə dönən o qanlı hadisələr təzə başlayanda öz yerindən-yurdundan ilk qaçqın düşənlərdən biri də elə Sisyan rayonunun və o gözəl Şəki kəndinin camaatı oldu... Qubadlı camaatı öz torpağından bir neçə il sonra, 1993-cü ilin avqust ayının 31-də qaçqın düşdü. Dayım deyirdi, hər şey elə qəfil oldu ki, evdən heç nə götürə bilmədik. Evi elə o cür dolu qoyub, qapıları bağlayıb, açarları götürüb çıxdıq. Qaçqın düşən qohumların az qala hamısı eyni sözü deyirdi. Bir

neçə ildən sonra cavanlardan biri danışırdı ki, gördüm anam nəvəsinin üstünə qışqırır. Oğlum da ağlayır. Dedim, ay ana, uşağı niyə ağladırsan? Dedi ki, bəs açarları itirib. Soruşdum, hansı açarları? Dedi, Qubadlıdakı evin açarlarını. Bu açar söhbətini mən azı on beş il bundan əvvəl bir televiziya çıxışımda dedim. Sonra məlum oldu ki, başqa işğal olunan rayonlardan da camaatın çoxu elə o cür, qapıları bağlayıb, açarları götürüb çıxıb. Keçən il, avqust ayının 31-də, Qubadlının işğal gününə həsr olunan bir televiziya verilişində mən yenə o açar söhbətinə qayıtdım və çox nikbincəsinə dedim ki, o açarlar nə qədər ki bizdədi, o torpaqlara qayıtmaq ümidimiz qalır və mən inanıram ki, biz o torpaqları görəcəyik. Amma sözün düzü, dediyim o ümidin, arzunun belə tez çin olacağını gözləmirdim. Azərbaycan əsgəri bizim ümidlərimizdən, arzularımızdan daha sürətli çıxdı. İndi o torpaqlara qayıtmışıq. Açarlar da bizdədi. Amma qapılar yoxdu. Bir vaxt qapılarını bağlayıb, açarlarını götürüb, içidolu qoyub çıxdığımız o evlər də yoxdu. Ermənilər uçurdub-dağıdıblar, yandırıblar, xarabalığa çeviriblər. Az-çox salamat qalan evləri də, o evlərdə yaşayan ermənilər indi qorxub qaçanda yandırdılar. Nəyi apara bildilərsə apardılar, apara bilmədiklərini də, evqarışıq, od vurub külə döndərdilər. Təkcə ev əşyalarını yox, ev heyvanlarını da, mal-qaranı, toyuq-cücəni, hətta iti, pişiyi də qırıb məhv elədilər. Neçə illər bundan əvvəl bu kəndlərə necə zalımcasına, rəhmsiz, dağıdıcı bir nifrətlə girmişdilərsə, elə o cür dağıda-dağıda da çıxıb getdilər. Və bu mənzərəni təkcə biz yox, bütün dünya gördü. Qəribədi, bəs görəsən, neçə illər bundan əvvəl bizimkilər bu yerlərdən qaçqın düşəndə niyə bu evlərin bir daşına-kərpicinə də əl vurmadılar, elə o cür içidolu qoyub, qapıları bağlayıb çıxdılar? Elə bil düşmənə hədiyyə elədilər. Niyə?!

Doğrusu, bu sualı mən təkcə indi yox, qələbəmizdən xeyli əvvəl də, illər uzunu, ara-sıra eşitmişəm. Amma əvvəllər təəssüflə deyilən bu sual, indi, ermənilərin törətdiklərini görəndən sonra elə bil özümüzə qarşı bir az ittiham kimi səslənir.

Və özümüzə bəraət olaraq verilən cavab da təxminən budur ki, biz o vaxt o evləri qoyub çıxanda bu ayrılığın bu qədər uzun çəkəcəyini bilmirdik. Ümidimiz vardı ki, uzağı bir-iki həftəyə, ya bir-iki aya qayıdacağıq. Amma sözün düzü, bu cavab mənə həmişə məntiqsiz görünüb. Öz evini çox yox, lap bircə günlüyə düşmənin ixtiyarına buraxıb gedən adam qayıdanda o evi nə vəziyyətdə görməyə ümid eləyə bilər ki?!.

Əslində, bu ritorik suallara da, məncə, ehtiyac yoxdu. Hər şey çox sadədi. Məsələ hər xalqın öz xarakterində, xasiyyətində, xislətindədi. Öz evini, üstündə körpələrinin iməkləyib ayaq açdığı xalçanı, palazı, üstündə balalarının yatdığı çarpayını, daha nəyi, nəyi, düşmənə qismət olmasın deyə yandırmağa hansı azərbaycanlının əli gələr ki? Axı öz evinin irili-xırdalı hər əşyası ona öz ailə üzvləri kimi doğma və əzizdi. Odur ki, bir vaxt dolu qoyub çıxdığımız, düşmənin soyub, talayıb, sonra da od vurub yandırdığı o doğma evlərin xarabalıqlarına baxanda, indi nəyəsə peşman olmağa, çox da kədərlənib qüssələnməyə ehtiyac yoxdu. O xarabalıqların yerində təzə, daha gözəl evlər tikmək, o köhnə evlərin illər boyu göz bəbəyi kimi qoruyub saxladığımız, indi qapısız qalan açarlarını da, o təzə evlərin ən görüntülü yerində, gözmuncuğu kimi divardan asmaq lazımdı. Qoy təzə evlərimizə göz dəyməsin!..

Aparıcılar səhnəyə daxil olur.

I Aparıcı: Salam hörmətli qonaqlar. Bu günkü tədbirimiz xalqın sevimli şairi Ramiz Rövşənə həsr olunub. O, şair ki, bu gün onun 75 illik yubileyinə toplaşmışıq. Əsl sənətkar dünyaya elə əbədi və əzəli Sözü tozlanmağa qoymamağa, Sözün tozunu almağa gəlir. Onun yolları hamar da olur, daşlı-kəsəkli də! Amma o öz yolunu gedir, öz işini görür-Sözü tərpədir, dirildir:

Məni də yola saldı söz,
Mən getdim, sizə qaldı söz,
Yenə təptəzə qaldı söz
Mən sözün tozunu aldım.

II Aparıcı: Ramiz Rövşənin illərlə kitabı çap olunmasa da, illər ərzində imzası ədəbi-bədii jurnallarda çox seyrək görünsə də onun poeziyası, yaradıcılığı həmişə bizimlə olub. ...

Oxucular səhnəyə daxil olur. R.Rövşənin "Yağış yuyur, gün qurudur" şeirini söyləyirlər.
Bu yerləri, bu göyləri
Yağış yuyur, gün qurudur.
Bu dünyada çox şeyləri
Yağış yuyur, gün qurudur.

Gözümüzün yaşını da,
Bağrımızın başını da,
Qəbrimizin daşını da
Yağış yuyur, gün qurudur.

Gələn nədi, gedən nədi?
Bələk nədi, kəfən nədi?
Bu dünya öz kefindədi,
Yağış yağır, gün qurudur.

...Ulduzların tozunu da,
Lap günəşin özünü də,
Lap yağışın özünü də
Yağış yuyur, gün qurudur...
Amma R.Rövşənin poeziyası, yazdıqları və yazmadıqları həmişə bizimlə olub. Çünki o, bizim yaşadığımız dünyadan, həyatımızdan, taleyimizdən yazıb.

Bu görüş sonuncu görüşdü daha
"Bu gün ayrılırıq" deyib gəlmişdin.
Bəs niyə mənimlə son ayrılığa
Ən gözəl donunu geyib gəlmişdin?
Bəs niyə o cürə gözəldin onda?
İndi bunu necə yozum bilmirəm.
Bəlkə də son dəfə mənim yadımda
Gözəl qalmaq idi arzun, bilmirəm.
Bir sevgi yarımçıq qırıldı o gün
Yağış da kəsildi bulud da getdi.
Bir qızla bir kişi ayrıldı o gün
Hərəsi bir yana üz tutub getdi.
O qızdan gözəl qız tapılmaz daha
Daha o kişidən igidi yoxdur.
Amma bu dünyada xoşbəxt olmağa
Daha heç birinin ümidi yoxdur.

II Aparıcı: R.Rövşənin hətta ən kədərli şeirləri insanı dünyanı sevməyə sövq edir. Onun kədəri işıqlı kədərdir. Füzuli kədəri kimi həyatı, gözəlliyi duymaqdan, sevgidən yaranan kədərdir. Bu kədərdə nəfəs var, ay işığı var, qara paltarlı qadının sakit sevgisindən yaranan, göz yaşı şəklində yanan ürək lampasının gur işığı var. Və nəhayət, insan hənirindən doğan bir səmiyyət var. Ramiz Rövşənin şeirləri hər adam üçün deyil, duyğusal insanlar üçün, nəfəsi məhəbbət ətri verən oxucular üçündür.

Mən daha güzgü adamam
mən daha özgə adamam.
Dərdləriylə baş-başa,
yazıq, fağır, ümidsiz,
bir az bezmiş adamam,
bir az küsmüş adamam.
Ayaqlarım unudub
Torpaq üstə gəzməyi.
Əllərim saçlarımı
daramağı unudub.

Sevgi sözünün ancaq
rəsmi qalıb gözümdə,
gözlərim göz yaşıyla
ağlamağı unudub.
Mən ağladan adamam,
mən ağlayan adamam.
Qulaqlarım deşilir
ürəyimin səsindən,
keçmişə əlim çatmır,
gələcəksə uzaqdır.

I Aparıcı: Onu da deyək ki, xalq öz yaradıcılığında səmimi olan şairə üstünlük verir. Ramiz Rövşən də məhz belə şairlərdəndir. Xalqın sevinci, kədəri, dərdi, acısı onun yaradıcılığında öz əksini tapır. Onun şeirlərində ədalət gözəllik vətənə xalqa sevgi, bağlılıq öz əksini tapır. Gəlin şairimizin həmin şeirlərindən birini oxucumuzun ifasında dinləyək.
*(Oxucu şairin "Kaş bu Odlar yurdunda" şeirini söyləyir.)*

Kaş ki, bu odlar
yurdunda
Qızına biləydi
adam.
Bir yaşıl ağac
altında
Uzana biləydi
adam.
Uzanaydı ömür kimi,
Qazılaydı qəbir kimi,
Baş daşına şeir kimi
Yazıla biləydi adam
Nə bir ata çörəyinə,

Nə dost-qardaş
Pis gündə öz ürəyinə
Qısıla biləydi adam.

II Aparıcı: Ramiz Rövşən xalqın sevimli şairidir. O şair olduqdan sonra, şair olmağın əzabını, məsuliyyətini- gecələr oyaq qalmağın çətinliyini və vaxtından əvvəl qocalmağı öyrəndi. “Mənim şair olmağa gücüm çatmır” ertirafı da şair ömrünün həmin əzablı keçidlərindən doğur. Bu anlarda şair “gündüzdən, gecədən, çöldən, küçədən, düşmən tənəsindən, dost gileyindən” sıyrılıb təzədən doğulmaq istəyir və öz fikrini misralarla ifadə edir:

Bəlkə başqa adam olardım onda
Bu dərdi özümdən qova bilərdim.

I Aparıcı: Hamımız 75 illik yubileyi münasibəti ilə əziz şairimizi ürəkdən təbrik edir, Xalq şairi Ramiz Rövşənə uzun ömür, can sağlığı arzulayır, neçə-neçə yeni kitabları ilə xalqımızı sevindirməsini diləyirik!
I Aparıcı: Tədbir Flora Kərimovanın ifasında sözləri Ramiz Rövşənə məxsus olan “Qatarın dalınca baxma” mahnısı ilə başa çatır .

**Ədəbiyyat siyahısı**

**ƏSƏRLƏRİ**

**Kitablar**

Gedək biz olmayan yerə : Şeirlər və poema. - Bakı : Çıraq, 2006. – 184 s.

Gizlənmişəm, tap məni. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2018. - 36 s. : rəngli il. - Bu kitab mənim bir baba kimi həm öz nəvələrimə, həm də bütün balalarımıza hədiyyəmdir.

Göy üzü daş saxlamaz :şeirlər və poema. - Bakı : Yazıçı, 1987. - 158 s. - kiril qrafikası ilə.

Göyərçinim, gəl görüm : şeirli, şəkilli əlifba. - Bakı : "TEAS PRESS" Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2018. - 64 s.

Nəfəs-kitablar kitabı : Şeir, nəsr, esse. - Bakı : [s. n.], 2006. - 760 s.

Sevgi açarı : şeirlər və povest. - Bakı : TEAS PRESS Nəşriyyat evi, 2019. - 256 s.

**Kitablarda**

Həsrət ; Qarabağ gözəli : şeirlər // Vətənə nağmə çələngi. - Bakı. : Qoliaf, 2011. - S. 340-344.

**Dövri mətbuatda**

Canavar : Vaqif Səmədoğluna həsr olunan şeir // Kaspi. - 2016. - 30 yanvar. - № 18. - S. 15.

Xəyanət : kinopovest // Azərbaycan : jurnal. - 2016. - № 12. - S. 5-29.Qoy heç kəs bilməsin : şeir **// Ədəbiyyat qəzeti. – 2018. – 21 aprel.** - № 14. **– S. 7.**

Səməd Vurğun 20 il də yaşasaydı : Səməd Vurğun – 110 // Azərbaycan : jurnal. - 2016. - № 3. - S. 8.
.
Şeirin əvvəl havası gəlir, sonar özü : Xalq şairi Ramiz Rövşən: "İnsan özünü təsdiq eləməyi bacarmalıdır" // Kaspi. – 2020. – 25 yanvar. - № 13. – S. 10.

Üç yarpaqdan biri : Vaqif Səmədoğlunun xatirəsinə // Ədəbiyyat qəzeti. - 2015. - 7 mart. - № 14/15. - S. 4.

**Haqqında**

**Ağabalayeva S.** Yaşamaq istədiyini yaşamaq istəyən qorxular : Ramiz Rövşən - 70 // Azərbaycan : jurnal. - 2016. - № 12. - S. 35-38.

**Akimova E.** Ramiz Rövşən şeri iki əsrin qovşağında // Ədəbiyyat qəzeti. - 2016. - 8 oktyabr. - № 37. - S. 16-17.

**Akimova E.** Sözlərin gücsüzlüyü, Ramiz Rövşən və qış günəşi : Ramiz Rövşən - 70 / E. Akimova // Ədəbiyyat qəzeti. - 2016. - 17 dekabr. - № 50. - S. 1,6-7.

**Bədəlov Ş.** Nəğmə yzan çiçəklərinsimfoniyası // Ədəbiyyat qəzeti. – 2018. – 19 may. – S. 19.

**Dastanoğlu R.** Göy üzündən yağan... Söz // 525-ci qəzet. - 2019. - 27 sentyabr. - № 130. - S. 11.

**Xəlilova A**. Şuşa. Daşaltı. Yanvar. 1992-ci il : Ramiz Rövşənin "Azərbaycan" jurnalında çap olunan "Xəyanət" kinopovesti barədə // Ədəbiyyat qəzeti. - 2020. - 25 yanvar. - № 3. - S. 22-23.

**Kamal R.** Ruhları görmək və eşitmək : [şair Ramiz Rövşənin nəsri haqqında l // Ədəbiyyat qəzeti. - 2016. - 17 dekabr. - № 50. - S. 7.

**Paşayev Q.** Azərbaycan jurnalının baş redaktoru İntiqam Qasımzadəyə // Ədəbiyyat qəzeti. - 2016. - 9 aprel. - № 13. - S. 3.

**Qasımzadə İ.** Sözü İlahidəndir : Ramiz Rövşən - 70 // Azərbaycan. - 2016. - № 12. - S. 3-4.

**Qiyas Ə.** Şam : Ramiz Rövşən - 70 // Ədəbiyyat qəzeti. - 2016. - 10 dekabr. - № 48-49. - S. 17.

**Müşfiq Ş**. Qəfil gün doğdu bir gecə : [Xalq şairi Ramiz Rövşənin yaradıcılığı haqqında] // 525-ci qəzet. - 2019. - 21 dekabr. - № 167. - S. 14.

**Müşfiq Ş**. Ramiz Rövşən rüzgarının yeni dalğası // 525-ci qəzet. - 2019. - 18 may. - № 77. - S. 15.

**Ramiz Rövşən -** 70 / Azərbaycan Yazıçılar Birliyi // Ədəbiyyat qəzeti. - 2016. - 17 dekabr. - № 50. - S. 4.

**Turan A. Sevgi məktubu kimi // Ədəbiyyat qəzeti. – 2018. – 21 aprel. -** № 14. **– S. 7.**
**Yeganə.** Düşüncə poeziyası : Ramiz Rövşənin poeziyası haqqında // Kaspi. - 2016. - 3 sentyabr. - № 138. - S. 21.

**Yusifli V.** Bir qoca işığam mən bu yaşımda : Ramiz Rövşən - 70 // Azərbaycan. - 2016. - № 12. - S. 30-34. ; Kaspi. - 2016. - 17 dekabr. - № 210. - S. 23.

**Yusifli V.** Şeirimizin dolaylarında : bəzi qeydlər // Azərbaycan : jurnal. - 2020. - № 3. - S. 149-161. Azərbaycan : jurnal. - 2016. - № 12. - S. 30-34.

**Yusifli V.** …İkinci şair Ramiz Rövşəndir // Poeziyamızın yolları və illəri. – Bakı: Mütərcim, 2009. – S.248-249.

## Haqqında olan televiziya verilişləri

Üç çinar yarpağı (film, 1985) (ssenari müəllifi Rüstəm İbrahimbəyov, rejissor Ramiz Həsənoğlu) (veriliş üç şair (Vaqif Səmədoğlu, Ramiz Rövşən və Vaqif Cəbrayılzadəyə həsr olunub)
Burax gedim, ay işığı (film, 1987) (rejissor Ramiz Həsənoğlu)
Ağrı (film, 1993) (rejissor Ramiz Həsənoğlu)

## Mətnlərinin müəllifi olduğu mahnılar

"Bağışla". Flora Kərimova
"Pıspısa xanım və Siçan bəy". Flora Kərimova
"Ayrılıq". Azərin
"Yalquzaq". Şəmistan Əlizamanlı
"Bu ağac öləcək...". Mehriban Zəki
"Bilirəm gələn deyilsən". Şəfa
"Bilirəm gələn deyilsən". Lamiyə
"Səni sevdim sevilmədən". Lamiyə

## Filmlərdə səslənən şeirləri

"Yağış yuyur, gün qurudur" (Əlvida, cənub şəhəri Mehriban Zəki)

# Poeziyamızın ustadı Ramiz Rövşən

(metodik vəsait)

**Komputer yığımı**

**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**

**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**